# VAHid ASLAN - 50



Hörmətli Vahid müəllim!

Sizi - tanınmış şair, yazıçı və publisisti 50 illik yubileyiniz münasibətilə təbrik edirik.

Siz ədəbiyyata ötən əsrin 90-cı illərində gəlmisiniz. Qələmə aldığınız şeirlər, poemalar, hekayələr və povestlər müntəzəm olaraq "Ədəbiyyat qəzeti", "Azərbaycan", "Ulduz" və digər nüfuzlu mətbuat orqanlarında çap olunmuşdur. Sizin əsərləriniz dünyanın aparıcı dillərinə tərcümə olunaraq bir sıra xarici ölkələrdə çap olunmuşdur. Siz 14 kitab, 3 monoqrafiya və 350-dən artıq məqalənin müəllifisiniz. "Gədəbəy rayonunun şəhidləri" kitabını Qarabağ uğrunda döyüşlərdə şəhid olmuş igid gədəbəylilərə həsr etmisiniz. "Riyaziyyat və poeziya" adlı kitabınız isə orta məktəblərdə riyaziyyat fənni üzrə tədbirlərin keçirilməsində metodik vəsait kimi istifadə olunur. Sizin ssenariniz əsasında Azərbaycan Radiosunda Qarabağın müdafiəsi uğrunda canlarından keçmiş şəhid şairlər haqqında silsilə verilişlər efirə getmişdir. Xüsusilə şəhid şair Nizami Aydına ithaf etdiyiniz "Nizami Aydın" poeması oxucular tərəfindən böyük maraqla qarşılanmışdır. Vətənpərvərlik ruhunda olan bir çox şeirinizə mahnılar bəstələnmişdir.

2010-cu ildə təsis etdiyiniz və hazırda baş redaktoru olduğunuz "Müəllim sözü" qəzeti tanınmış maarifçi-ziyalıların gənc nəslə tanıdılmasında və təbliğində səmərəli fəaliyyət göstərməkdədir. Siz 25 illik pedaqoji fəaliyyətiniz dövründə respublikanın müxtəlif orta və ali təhsil ocaqlarında müəllim kimi yorulmadan çalışmısınız. Respublika Təhsil Şurasında ictimaiyyətlə əlaqələr şöbəsinin müdiri vəzifəsində çalışarkən uğurlu fəaliyyət göstərmisiniz.

Hörmətli Vahid müəllim!

Sizi bir daha yubileyiniz münasibətilə təbrik edir, uzun ömür, cansağlığı və yaradıcılıq uğurları arzulayırıq.

**Azərbaycan Yazıçılar Birliyi**

Ədəbiyyat qəzeti.- 2022- ci il.- 1 oktyabr.- S. 32.